# Qırğızıstan Joqorku Keneşinin Sədrinin başçılıq etdiyi nümayəndə heyəti Füzuli və Şuşa şəhərlərində olub

**Azərbaycanda rəsmi səfərdə olan Qırğız Respublikası Joqorku Keneşinin Sədri Nurlanbek Şakiyevin başçılıq etdiyi parlament nümayəndə heyəti iyunun 5-də Füzuli və Şuşa şəhərlərində olub.**







Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə nümayəndə heyəti Füzuli Beynəlxalq Hava Limanı ilə tanış olub. Sonra qonaqlar Füzuli şəhərinə gəliblər. Onlara Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılmış Füzulidə törədilən dağıntılar, vandalizm aktları barədə məlumat verilib. Bildirilib ki, erməni vandalları işğal etdikləri digər şəhər və kəndlər kimi, Füzuli şəhərini də talayıb, yer üzündən siliblər. İşğal dövründə bütün evlər, infrastruktur, sosial obyektlər dağıdılıb, təsərrüfatlar məhv edilib.

Qonaqlara rayon işğaldan azad edildikdən sonra Füzuli şəhərində baş plana uyğun olaraq Azərbaycan dövləti tərəfindən həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri barədə məlumat verilib. Şəhərdə ilk yaşayış məhəlləsinin inşasının yekunlaşdığı və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışının başlandığı bildirilib.

Sonra qırğız nümayəndə heyəti Şuşa şəhərinə yola düşüb.

Qonaqların Şuşaya səfəri Azərbaycanın tanınmış şəxsiyyətləri olan Natəvanın, Bülbülün və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərinin yerləşdiyi şəhər mərkəzi meydanı ilə tanışlıqdan başlayıb.

Qırğızıstan nümayəndə heyətinə Şuşa şəhərinin tarixi, işğal dövründəki vəziyyəti və burada aparılan quruculuq işləri barədə məlumat verilib.

Sonra nümayəndə heyəti Yuxarı Gövhər ağa məscidi, qala divarları ilə tanış olublar. Cıdır düzünə gələn qonaqlar oradan açılan gözəl mənzərəni seyr ediblər.

Səfərdə qonaqları Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, Azərbaycan-Qırğızıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Musa Quliyev, ölkəmizin Qırğızıstandakı səfiri Lətif Qəndilov və digər rəsmi şəxslər müşayiət ediblər.

***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 6 iyun, № 118.- S.3.